**Azərbaycan Respublikasının 2005-ci il 28 iyun tarixli 961-IIQ saylı Qanunu ilə təsdiq edilmiş "Şəxsin cinayət məsuliyyətinə cəlb edilməsi üçün kifayət edən narkotik vasitələrin və psixotrop maddələrin miqdarına, habelə onların külli miqdarına görə siyahıları"nda dəyişikliklər edilməsi haqqında**

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi **qərara alır:**

Azərbaycan Respublikasının 2005-ci il 28 iyun tarixli 961-IIQ saylı Qanunu (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005-ci il, № 8, maddə 697, № 12, maddə 1085) ilə təsdiq edilmiş "Şəxsin cinayət məsuliyyətinə cəlb edilməsi üçün kifayət edən narkotik vasitələrin və psixotrop maddələrin miqdarına, habelə onların külli miqdarına görə siyahıları"nın II siyahısının "Dərman preparatlarının beynəlxalq adı" sütununda aşağıdakı dəyişikliklər edilsin:

1. 25-ci bənddə "Etilamfetamin" sözü "Etilamfetamin-N-etilamfetamin" sözləri ilə əvəz edilsin;
2. 48-ci bənddə "Katin" sözü "Katin (+) – Norpsevdoefedrin" sözləri ilə əvəz edilsin;
3. 95-ci bənddə "Sipeprol" sözü "Zipeprol" sözü ilə əvəz edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 20 aprel 2010-cu il
№ 994-IIIQD